AMEA-nın Xəbərləri (biologiya və tibb elmləri), cild 68, №2, səh. 121-124 (2013)

Naxçıvan Muxtar Respublikasında Camışların Helmint Faunası

Q.T.Fərhadov

Naxçıvan Elmi-Tədqiqat Baytarlıq Mərkəzi, Naxçıvan şəh., Azərbaycan;
E-mail:qadir_ferhadov@hotmail.com

Məqalədə camışlar arasında parazitlik edən helmint növlərindən bəhs edilir. Naxçıvan Muxtar Respublikasında camışların 20 növ helmintə yoluxması müəyyən olunmuşdur. 5 aylıqdan başlayaraq daha yuxarı yaşlara qədər helmintə yoluxmanın davam etməsi müəyyənləşdirilmişdir. Otlaq sahələrinin xüsusiyyətlərindən və camışların yaşlarından asılı olaraq camışların göstərilən helmintlərə yoluxma vəziyyəti araşdırılmışdır. Naxçıvan MR-da camışların xüsusi çəkisi maldarlıqda aşagı olmasına baxmayaraq onlar iri buynuzlu malların helmint faunasının formalaşmasında xüsusi əhəmiyyətə malikdir.

Açar sözlər: *camış, növ, helmint, fauna*

GİRİŞ

Camışlar istilik sevən heyvan olub Asiya ölklərində və Avropa, Afrika və Cənubi Amerika qitələrində yayılmışdır. Filogenetik cəhətdən qədimi heyvanlardır. A.A.Ağabəyli (1967) hesab edir ki, camışlar iribuynuzlu hey vanlar ilə bir qrupda cəmləşib. Camışlar müstəqil bubalos növünə məxsusdur. Camışların vəhşi növləri bu gün təbiətdə Cənub-Şərqi Asiya və Mərkəzi Afrika qitələrində vəhşi halda yaşayırlar. Camışların əhilləşdirilməsi 1937-ci ilə qədər təkmilləşdirilmişdir. Camışlar iri heyvanlar olub dörd yaşında və yuxarı yaşlarda 430- 660 kq olub 1400-3500 kq-a qədər süd verirlər. Camış südünün yağlılığı 7,2-10,0% olur. Ət çıxarı 42-46%-ə çatır. Camışın əti çoxlu miqdarda zülal, fosfat turşuları, dəmir preparatları ilə zəngin olduğundan ət tünd qırmızı rəngə çalır. İsraildə qan azlığı olan adamlara həkimlər cavan camış ətini yeməyi məsləhət görürlər. Camışın südündə zülalın miqdarı 3-5%, kazein 3,0-4,3% süd şəkəri 4,5-5,3% minerallar 0,7-0,8% təşkil edir. Camış südünün kaloriliyi 1110-1480 kaloridir. Camış südündə vitaminlərin miqdarı inək südündən yuxarıdır. Camış südünün 12 litrindən 1kq yağ almaq olar. Dünyada 78 milyon camışdan 48 milyonu Hindistan dadır. Qafqazda isə Azərbaycan, Gürcüstan, Ermənistan və Rusiyada yayılmışdır. Bu camışlar əsasən Hindistan mənşəli camışlardır.

Camışların əsas qidası qaba yemlər, qamış, müxtəlif otlar təşkil edir. Camışlar soyuğa davamsız olduqlarından soyuq aylarda isti tövlələrə köçürülməlidir.

Camışlarda helmintlərin öyrənilməsi ilə baglı bir çox məlumatlar (Асадов, 1958; Гаджиев, 1951; Мамедов, 1969; Махмудов и Атаев, 2005; Махмудов и др., 2006; Телевова, 2012; Srivastova and Pande, 1964) vardır. Azərbaycan Respublikası Milli Elmlər akademiyasının Zoologiya institinun və Elmi-Tədqiqat Baytarlıq İnstitutunun əməkdaşları tərəfindən əhli gövşəyənlərdə 119 növ helmint müəyyənləşdirmiş, o cümlədən camışlarda 53 növ helmintin parazitlik etdiyi göstərilmişdir. Camışların helmintozları içərisində ən çox ziyan vericiləri əsasən fassiolyoz, dikroselyozdur. Onlar qaraciyərdə iti və xroniki hepatit, qaraciyərin serrozu, öd yollarının iltihabı, öd yollarının kirəcləşməsi paramfistomatozlar isə camışlar da enterit və pankreatit fəsadları ilə orqanizmdə patoloji vəziyyət yaradırlar. Sestodozlardan ən çox moniezioz, exinokokkoz, sistiserkoz, nematodlardan trixostrongilyoz, neoaskaridoz, diktiokaulyoz, telyazioz geniş yayılmışdır və camışçılarda müəyyən miqyasda ət və süd məhsuldarlığının azalmasına səbəb olur (Ağabəyli, 1967; Гаджиев, 1951).

Naxçıvan Muxtar Respublikasında üç min başa yaxın camış saxlanılır ki, bu da maldarlıgın bir hissəsini təşkil edir, lakin onun sayı nəzərə çarpacaq dərəcədə olmasına baxmayaraq maldarlıqda helmint faunasının formalaşmasında, təbii ocaqların yaranmasında müəyyən rol oynayır. Muxtar Respublikada camışlar sürü şəkilində yox pərakəndə, fərdi saxlanıldıgından kütləvi halda antihelmit tədbir aparılmır, ona görə epizootoloji vəziyyət təbii, oldugu kimi izlənilir. Camışçılıq cüzi miqdar təşkil etdiyindən, camışlar arasında yayılmış helmintlərin ayrıca növ halnda Naxçıvan Muxtar Respublikasında helmint faunasının öyrənilməsi bu vaxta qədər toxunulmamış qalmışdır.

Bu baxımdan, Naxşıvan Muxtar Respublikası ərazisində müxtəlif otlaq sahələrində camışlarda parazitlik edən helmintlərin növ tərkibinin öyrənilməsini mövsümdən və heyvanın yaşından

asılı olaraq və onlarda parazitlik edən helmint assosasıyasnın aydınlaşdırılması qarşıya məqsəd qoyulmuşdur.

MATERİAL VƏ METODLAR

2005-2009-cu illərdə kəndlərdə, kəsim məntəqələrində, və bazarlarda məcburi kəsilən və ölən; 1 yaşa qədər və ondan yuxarı 2, 3 yaşlarında 65 baş camışların daxili orqanları mədə-bağırsaq, qursaq və işkənbələri tədqiq edilmişdir. Bundan əlavə, Respublika Baytarlıq Laboratoriyasına və Elmi Tədqiqat Baytarlıq Mərkəzininə baytar həkimləri tərəfindən göndərilmiş 850 baş camışların kal nümunələri müayinədən keçirilmişdir. Müayinə zamanı camışların helmintlərə yoluxma ekstensivliyi və intensivliyi və eyni zamanda müxtəlif mövsüm və fazalarda müşahidə olunma vəziyyəti nəzərdən keçirilmişdir. Ölmüş və kəsilmiş 65 baş camışın cəsədləri və daxili orqanları K.İ.Skryabinin Tam Helmintoloji Yarma üsulu (1928) ilə müayinədən keçirilmiş və rast gəlinən helmintlər toplanaraq Barbaqallo məhlulunda fiksasiya edilmişdir. Kal nümunələri ardıcıl yuma və azot gübrəsinin doymuş məhlulu ilə üzdürmə üsulu ilə müayinədən keçirilmişdir.

NƏTİCƏLƏR VƏ ONLARIN MÜZAKİRƏSİ

Naxçıvan Muxtar Respublikasında camışların 20 növ helmintə yoluxması müəyyən edilmişdir. Bu helmintlərə yoluxma faizi 5%-dən 65%-ə qədər, intensivliyi isə 3 nüsxədən 230 nüsxəyə qədər olduğu müəyyənləşdirilmişdir. Ümumi halda orta hesabla parazitlərin ekstensivliyi camışlarda 25% olmuşdur. Ən yuxarı yoluxma faizi *D.lanceatum* 38,5%, intensivlik 5-180 nüsxə, *F.hepatica* 36,9%, intensivliyi 56 nüsxə, *D.viviparus* 65%, neoaskaridoz 25%, trixostrongilyoz 12% müəyyən edilmişdir. 1 yaşa qədər cavan camışlarda fassilyoza, dikroselyoza yoluxma ekstensivliyi 7,5-9,0% və intensivliyi 12-19 nüsxə olub. 2 illik yaşında isə helmintlərə yoluxma 15 növ olmuş, invaziyanın ekstensivliyi isə 41,2%-ə çatmışdır.

Yaşlı camışlarda yoluxma faizi daha yüksək olmuşdur. Cədvəldə bu göstəricilər əks olunmuşdur. Ümumiyyətlə camışlarda bütün xəstəliklərdə olduğu kimi helmintozlar zamanı profilaktik tədbirlərin aparılması nadir hallarda olduğundan, inkişaf dinamikasına heç bir müdaxilə olmadıgından camışlarda aparılan helmintoloji müayinələr təbiidir. Yaşlı heyvanların yoluxması cavanlara nisbətən daha qabarıq və intensiv olmaqla və cavanlara nisbətən yuxarı yoluxma qeyd olunub.

Müayinələr zamanı helmintlərin yerləşmə yerindən asılı olaraq qaraciyərdə, öd yollarında hepatit, qaraciyərin qansızlaşması, öd axarlarının tutulması, çox vaxt öd kisəsinin ödlə dolu olmasını müşahidə etdik. Eyni zamanda müəyyən edildi ki, fassiola yerləşən nöqtələrdə dikroselilər olmur, əksinə dikroselilər ən çox öd axarlarında toplanırlar. Bu da onu göstərir ki, helmintlərin aldığı qida və yerləşdiyi ərazi məsələsində helmintlər arasında rəqabət gedir. Qeyd olunmalıdır ki, helmintlər bir-biri ilə antoqonist xüsusiyyət təşkil etdiklərindən birinin rast gəldiyi ərazidə digər helmintin yaşaması qeyri-münasib hesab olunur.

Cədvəl. Naxçıvan Muxtar Respublikasında camışların helmintə yoluxma dərəcəsi (helmintoloji yarma məlumatlarına əsasən)

№	Helmintin adı	yoxlanılıb	yoluxub	ekstensivlik	intensivlik
1	*Fassiola hepatica*	65	24	36,9	5-56
2	*Fassiola Qiqantika*	65	23	35,3	5-32
3	*Dikrocoelium Lanceatum*	65	25	38,5	5-180
4	*Paramphistomum ichikowai,*	32	3	9,3	5-230
5	*Moniezia expansa*	20	2	11	1-4
6	*Moniezia benedeni*	20	2	11	1-3
7	*Thycaniezia giardi*	20	3	15	2-14
8	*T.saginatus (cysticerus bovis)*	20	1	5	2-3
9	*Echynococcus granulosus,*	65	6	9,2	5-32
10	*Bunostom.trigonocephaluum*	20	2	10	3-18
11	*Oeshophaqostomum radiatum*	25	2	8	15-180
12	*Trichostrongilus axei*	25	3	12	5-60
13	*Neascaris vitulorum*	6	2	33,3	5-60
14	*Trichostrongil.colimbriformis*	25	2	8	15-60
15	*Ostertagia ostertagi*	25	3	12	7-25
16	*Neascaris vitulorum*	4	1	25	7-50
17	*Trichocephalus ovis*	65	15	23	10-65
18	*Trichocephalus skrjabini*	65	12	18	8-44
19	*Dictyocaulus viviparous*	65	42	64,6	8-68
20	*Thelazia rhodesi*	100	22	22	3-7

Aparılan müayinələr nəticəsində otlaq sahəsində helmintin aralıq sahibindən və şəraitindən asılı olaraq bir növün digərinə dominant oldugu müəyyənləşdirilmişdir. Ən çox dominantlıq isə Fassiola və dikroselilərdə üzə çıxır. Sübut olunmuşdur ki, Muxtar Respublikada camışların helmintlərlə yoluxmasına vahid şəkildə az təsadüf olunur. Əsasən isə helmint assosiasiyası şəkilində daha çox müşahidə olunur. Bir camışda eyni vaxtda bir neçə helmintin (fassiola, dikroseliom, bunostom, nematodirus, exinokokk, trixostrongililərin) parazitlik etməsi müəyyən olunmuşdur.

Infeksion və invazion xəstəliklərdə olduğu kimi helmintozlar zamanı da camışlarda iştahın pozulması, ağızdan su axması, düşkünlük, zəiflik, görünən selikli qişaların solğunlaşması, xarici mühitə qarşı reaksiyanın zəifləməsi güclü tərləmə və qanda, kal nümunələrində qan ifraz olunması qeyd olunur. Trematodozlar zamanı çənəaltı və boğaz altında soyuq şişlər müşahidə olunur.

NƏTICƏ

Naxçıvan Muxtar Respublikasında nəticə etibarilə camışlarda 20 növ helmintin müxtəlif assosiasiya vəziyyətində parazitlik etməsi müəyyənləşdirilmişdir. Apardıgımız müşahidə və mbarizə tədbirlərinə əsasən müəyyən olunmuşdur ki, yoluxma getmiş ərazilrərdə helmintlərin epizootologi vəziyyətinin aradan qaldırılması üçün aparılacaq müalicə profilaktik tədbirlərin müddəti 3-4 ilə qədər vaxt tələb edir.

ƏDƏBİYYAT

Агабейли А.А. (1967) Буйволы. М.: Колос, 396 с.

Асадов С.М. (1958) Гельминтофауны зебу и буйволов в Азербайджана. Докл. АН Азерб. ССР, **14(№12):** 1031-1034.

Гаджиев К.Ш. (1951) Неоаскаридоз буйволят. Ветеринария, **№4:** 28.

Мамедов А.К. (1969) Специфичность гельминтов крупного рогатого скота, буйволов и зебу. Тр. Аз. НИВИ, **24:** 109-115.

Махмудов К.Б., Атаев А.М. (2005) Гельминты и гельминтозы желудочно- кишечного тракта буйвола в Дагестане. Сб. Научн. Трудов Ставропольского ГАУ, 141-143.

Махмудов К.Б., Атаев А.М., Алмаксудов У.П., Кочкарев А.Б. (2006) Трематоды буйволов Дагестана. Тр. ВИГИС *(М.)*, **44:** 146-150.

Телевова Н.Р. (2012) Гельминтозы буйвола в Дагестане и совершенствование мер борьбы. Дис. … канд. ветеринар. наук. Махачкала, 128 с.

Srivastova S.C, Pande B.P. (1964) The intestinal thread worm *Strongyloides papillosus* (Wedl., 1856) Ransam, 1911, in young buffalo-calves - a histological study. Indian J. Veterin.Sci. and Animal Husbandry, **34(4):** 214-221.

Гельминтофауны Буйволов На Территории Нахчыванской Автономной Республики

Г.Т.Фархадов

Нахчыванский НИ ветеринарный центр

В статье описываются виды гельминтов, паразитирующих в буйволах. Впервые нами в Нахчыванской Автономной Республики изучены гельминтофауны буйволов и установлено, что буйволы заражены 20 видами гельминтов. Начиная с 5-недельного возраста и выше, инфекции распространяются широко. Изучена степень тяжести заражения в зависимости от возраста буйволов и характеристики пастбищ. В Нахчыванской АР количество буйволов, по сравнению с крупным скотом, меньше, но они имеют особое значение в формировании фауны гельминтов

Ключевые слова: *буйвол, вид, гельминт, фауна*

Helminthofauna of Buffaloes In The Territory Of the Nakhchivan Autonomous Republic

G.T.Farhadov

Nakhchivan Research Veterinary Center

This article describes the visible helminth parasites in buffalo. For the first time in the Nakhchivan Autonomous Republic we studied helminthofauna of buffalo and found that buffaloes were infected with 20 species of helminths. The infection started from 5 weeks of age. Severity of the infection was examined in relation to the age of buffaloes and characteristics of pastures. In the Nakhchivan AR the number of buffaloes are low compared with cattle but they are of particular importance in the formation of the helminth fauna.

Key words: *buffalo, species, helminth, fauna*